*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 11 yanvar 2020-ci il | № 2 (2420) | Qiyməti 30 qəpik


*Ön xətdən reportaj*

## “Azərbaycan əsgərinin ruhu Vətən sevgisidir”



*Yol gedirik... Uzandıqca uzanan, qıvrıldıqca qıvrılan qəlbimizin doğanağından keçən yollar bizi Qarabağa, daha doğrusu, onun dilbər guşələrindən birinə aparır. Yolboyu müharibənin buraxdığı izlər açıq-aydın sezilir. İzləri gördükcə narahat olmaya bilmirsən. Yaddaşımızın dərinliklərində pozulmaz iz salan, xalqımıza, onun oğul və qızlarına qarşı düşmən tərəfindən amansızlıqla həyata keçirilən hadisələr baş qaldırır, sanki yolumuza bələdçilik edir. Qarış-qarış irəlilədikcə burada gedən döyüşlər və bu döyüşlər haqqında informasiyalar gözümüzün önündən keçir. Bir tərəfdən müharibənin buraxdığı amansız izlər, ara-sıra görünən yanmış, dağılmış evlər. Digər bir tərəfdən də qəlbimizi oxşayan, xoş duyğular bəxş edən, gələcəyə ümid və inam işığı yandıran müasir şəhər.*

Yeni salınan rahat və geniş yollarla sürətlə şütüyən maşın müasir şəhəri, eyni zamanda, kənd və qəsəbələri arxada qoyub, "N" hərbi hissəsinin ön xətt bölməsinə çatır.

Bu qış günündə qarşı tərəfdə dağılmış evlər, uçuq-sökük binalar, zamanın sınağından çıxmış tarixi abidə diqqətimizi çəkir. Səngərdə ilk dəfə olduğum kimi qəribə hisslər keçirirəm. Elə bilirəm ki, bu anlarda, bu dəqiqələrdə Azərbaycan Ordusunun şəxsi heyəti ilə birgə qarşı tərəfə - öz tarixi torpaqlarımıza doğru hərəkət edəcəm. Artıq düşüncələrimin gücü ilə torpaqlarımızı geri qaytarmışıq, o yerləri gəzirəm... Bu abu-hava qışın sazağında məni isidir, canıma sözlə izah etməyə çətinlik çəkdiyim rahatlıq gətirir.

**(Ardı 2-ci səhifədə)**



“Yeni ili qələbə inamı ilə qarşıladıq”

3-cü səhifədə



20 Yanvar qəhrəmanlıq və qürur günümüzdür

5-ci səhifədə



Turnir və müsabiqələrin keçirilməsi ənənədir

6-cı səhifədə



“Fiziki hazırlığın artırılmasını diqqət mərkəzində saxlayırıq”

7-ci səhifədə

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan ilə Bolqarıstan arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov yanvarın 10-da Bolqarıstan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Nikolay Yankov ilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli hərbi əməkdaşlıq əlaqələrinin mövcud vəziyyətinə toxunulub, bu əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulanıb.

Regiondakı hərbi-siyasi vəziyyətə toxunan nazir Ermənistanın işğalçılıq siyasətinin davam etdiyini və danışıqların rəsmi Yerevan tərəfindən qəsdən uzadılmasının bölgədəki şəraitə mənfi təsir göstərdiyini qeyd edib.

Diplomat da öz növbəsində Azərbaycan ilə bütün sahələrdə əməkdaşlıqda maraqlı olduqlarını bildirərək Bolqarıstanın Azərbaycanı dost ölkə hesab etdiyini vurğulayıb.

Görüşdə Azərbaycan ilə Bolqarıstan arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri, hərbi texniki, hərbi təhsil sahələrində əlaqələrin genişləndirilməsi, qarşılıqlı səfərlərin təşkili, regional və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

## Azərbaycan Ordusunda hərbi xidmətin nüfuzunun yüksəldilməsi üzrə qurumlararası birgə tədbirlər planı imzalanıb

Müdafiə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi, eləcə də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti 2020-2023-cü illər üçün "Cəmiyyətdə, xüsusilə gənc nəsil arasında Azərbaycan Ordusunda hərbi xidmətin nüfuzunun yüksəldilməsi üzrə" birgə tədbirlər planını imzalayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, planda xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan Ordusunun formalaşmasında tarixi fəaliyyətinin və Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuzda həyata keçirilən islahatların təbliği, hərbi xidmətin nüfuzunun yüksəldilməsi istiqamətində gənc nəsil arasında hərbi vətənpərvərlik ruhunda kütləvi tədbirlərin, gənclərin milli dəyərlərə, tarixi ənənələrə bağlılığını daha da artırmaq məqsədilə tarixi yerlərə gəzintilərin, tarixi günlərə həsr olunan "dəyirmi masa"ların təşkili, maarifləndirmə və təbliğat işlərinin aparılması və digər məsələlər nəzərdə tutulub.

Planlaşdırılan tədbirlərin vaxtında və yüksək səviyyədə həyata keçirilməsinin təmin edilməsi məqsədilə aidiyyəti şəxslər qarşısında konkret tapşırıqlar qoyulub.

## Müdafiə Nazirliyi ilə Respublika Hərbi Prokurorluğu birgə tədbirlər planı imzalayıb

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, 2020-ci ildə Azərbaycan Ordusunda hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsi, cinayət hadisələrinin qarşısının alınması məqsədilə Müdafiə Nazirliyi ilə Respublika Hərbi Prokurorluğu arasında birgə tədbirlər planı imzalanıb.

Plana əsasən, keçirilməsi nəzərdə tutulan tədbirlərin icra vaxtı, keçirilmə yeri və məsul şəxslər müəyyən edilib.

İl ərzində Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində müxtəlif kateqoriyalardan olan hərbi qulluqçularla nəzərdə tutulan görüşlərdə şəxsi heyətin hüquqi biliklərinin artırılması, nizam-intizamın və hüquq qaydalarının möhkəmləndirilməsi, mövcud problemlərin aradan qaldırılması istiqamətində müəyyən olunmuş tədbirlər və digər fəaliyyətlər həyata keçiriləcək.

# "Azərbaycan əsgərinin ruhu Vətən sevgisidir"

**(Əvvəli 1-ci səhifədə)**

Zabit yoldaşlarımızdan biri mayor İlqar Quliyev qəfildən nümayişkaranə şəkildə bildirir: "Azərbaycan əsgəri torpaqlarımızı Ali Baş Komandanımızın əmri ilə tezliklə azad edəcək. Onda gördüyümüz, ancaq gedə bilmədiyimiz, qəlbimizin nisgilinə çevrilən torpaqlarımız ruhumuzun ocağına çevriləcək, qışın sazağında onun istisinə qızınacağıq". Bu fikir yenidən dərin bir sükut yaradır…



Gizir Turqay Məmmədovun "Hər bir hərbi qulluqçu dərk edir ki, hazırkı mürəkkəb tarixi şəraitdə ölkəmizin ərazi bütövlüyünün bərpası məsələsində arxalana biləcəyi yeganə güc Azərbaycan Ordusudur. Hazırda ordumuzun güclü olması, ən müasir silahlarla təchiz edilməsi, döyüş tapşırıqlarını qüsursuz yerinə yetirə bilməsi hərbi reallıqdır. Bu reallıq bizdə qürur və fəxarət yaratdığı kimi, qarşı tərəfdə də qorxu və vahimə yaradır. Ancaq düşmənin məsələyə münasibəti reallığı dəyişmir. Azərbaycan Ordusu bir-birinin ardınca elə qələbələrə imza atdı ki, bu ciddi uğurlar problemin həllində yeni mərhələ yaradacaq keyfiyyət dəyişiklikləri formalaşdırdı" fikri sükutu pozur.

Zabit İlqar Quliyev söhbətə Azərbaycan Ordusunun qurucusu, ulu öndər Heydər Əliyevin sözləri ilə davam edir: "Ordu qurmaq, Silahlı Qüvvələr yaratmaq böyük bir bina tikmək deyil. Ordu canlı orqanizmdir. Bu bir tərəfdən canlı orqanizm kimi yaşayır, ikinci tərəfdən isə canlı orqanizm kimi daim inkişaf etməlidir. Ona görə də biz Silahlı Qüvvələrimizi ilbəil təkmilləşdirməliyik, onun gücünü artırmalıyıq, peşəkarlıq səviyyəsini yüksəltməliyik, təchizatını ilbəil yaxşılaşdırmalıyıq". Ulu Öndərin bu tövsiyələrinə bütün hərbi hissələrimizdə ciddi əməl edilir, ordunun müdafiə potensialının gücləndirilməsinə xüsusi diqqət yetirilir, Vətənin müdafiə qabiliyyətinin artırılması üçün kompleks tədbirlər həyata keçirilir, Ali Baş Komandanımızın diqqət və qayğısı sayəsində hərbi hissələrin maddi-texniki bazası möhkəmləndirilir. Bizim hərbi hissə də müasir texnika ilə təchiz edilib, Vətənin müdafiəsinə daim hazır olan yüksək nizam-intizama malik hərbi hissəyə çevrilib. Şəxsi heyətin üzərinə düşən müqəddəs vəzifəni hərtərəfli yerinə yetirməsi üçün ən yüksək səviyyədə şərait yaradılıb. Bu isə biz zabitlərin məsuliyyət hissini daha da artırır."

Əsgər Natiq Əhmədov bildirir ki, Vətən Azərbaycan Ordusunun şəxsi heyəti üçün müqəddəsdir. "Ona görə müqəddəsdir ki, ata-babalarımız bu torpaqlarda yaşayıb, yaradıb, onu qoruyub və onun uğrunda vuruşub. Babalarımızdan bizə əmanət qalan torpaqlarımızı qorumaq hərbçilərimiz üçün böyük bir əxlaqi keyfiyyətdir. Bu gün orduda xidmət etmək torpağı, Vətənin daşını, havasını, suyunu da sevmək deməkdir. Ona görə də hər bir əsgər mənsub olduğu millətin, xalqın mənəvi dəyərlərini bilməli, onları heç vaxt unutmamalıdır. Mənsub olduğu xalqın dilini, dinini, dövlət rəmzlərini göz bəbəyi kimi qorumalı, hüquqlarını bilib, qanunlarına əməl etməlidir. Hərbçilər bütün ruhları ilə Vətənə bağlıdırlar. Vətən eşqi bizlərin bütün ruhunu bürüyüb."

"Bizim üçün ən böyük şərəf odur ki, bu gün Azərbaycan Ordusunun əsgəriyik", - əsgər Xanbaba Eldarov söhbətə qoşulur. - Bu gün hər birimiz yaxşı bilirik ki, güclü bir dövlətin vətəndaşıyıq, qüdrətli bir ordunun əsgəriyik. Rəhbərliyimizin diqqət və qayğısını, himayədarlığını hər zaman üzərimizdə hiss edirik. Əsgərlərimiz arasında münasibətlər sırf səmimilik və qarşılıqlı inam əsasında qurulub. Mühit elə qurulub ki, yeni gələn əsgərlərimiz də tez bir zamanda bu abu-havaya alışır, zabitlərimiz tərəfindən öyrədilənləri yüksək səviyyədə mənimsəyir və günbəgün döyüş potensialını artırırlar. Arzumuz, istəyimiz, məqsədimiz isə birdir...

Xanbabanın sözünün davamı kimi əsgər Malik Rzayev "Azərbaycan əsgərinin formalaşdırılması, onun bir döyüşçü kimi yetişdirilməsinin ağırlıq mərkəzi məhz döyüş hazırlığının üzərinə düşür. Bu vəzifənin yerinə yetirilməsində biz əsgərlərin döyüş hazırlığı həlledici rol oynayır. Təcrübələr onu göstərir ki, döyüş səhnəsində hazırlıqlı əsgər daha çox əhəmiyyət daşıyır. Biz əsgərlərin istər fiziki, istərsə də mənəvi cəhətdən inkişaf etməsində, hərbi qulluqçu kimi Vətənin müdafiəsinə hazırlanmasında təlimlər, keçirilən məşqlər, döyüş hazırlığı dərsləri xüsusi rol oynayır", - deyə bildirir.



Əsgər Tural Əhmədov qeyd edir ki, Vətənin keşiyində dayanmaq şərəfli işdir. "Xidmətdə olduğum müddətdə çoxlu hərbi biliklərə yiyələnməyə çalışıram. Komandirlərimiz bizimlə mütəmadi olaraq müxtəlif mövzularda söhbətlər aparır, keçirilən dərslərdə döyüş hazırlığının sirlərini öyrənirik. Doğma torpağımız daim vətənpərvər övladlar böyüdüb. Vətən yolunda canından keçən mərd oğullarımız da çoxdur. Onlar öz qəhrəmanlıqları ilə adlarını əbədi olaraq şanlı tariximizə yazdırıblar. Biz də həmin igidlərdən nümunə götürməyə və mənfur düşmənə hər an layiqli cavab verməyə hazırıq".

Hər bir işin başlanğıcı olduğu kimi sonu da olur. Vaxt yetişir. Ön xətdəki bölmədən ayrılmaq zamanı gəlib çatır. Hərbi hissəyə gedəndə hansı inam hissi, sevinc və ümidlə yola çıxmışdıqsa, qayıdanda da həmin sevinc, inam hissi və ümidlə - bu yolu bir daha geri qayıdacağımızı, ancaq Azərbaycan əsgərinin azad edəcəyi, ayaq basacağı torpaqları - Şuşanı, Xankəndini, Laçını, Ağdamı... görəcəyimizi və qalib ordunun şəxsi heyətini təbrik edəcəyimizi düşünə-düşünə geri dönürük.

**Mayor
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu",
fotolar
çavuş
Rəşad ƏMRAHOVUNDUR**

# Naxçıvan Qarnizonunda gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının növbəti buraxılışı keçirilib



*Naxçıvan Qarnizonunda gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kurslarının növbəti buraxılış mərasimi keçirilib. Mərasimdə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra polkovnik Mehman Gülməmmədov bildirib ki, kursları uğurla başa vuran məzunlar Əlahiddə Ümumqoşun Ordunun, Naxçıvan Əlahiddə Sərhəd Diviziyasının, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayının hissə və bölmələrində xidmətə başlayacaqlar.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, qeyd olunub ki, təyin olunmuş tədris proqramına uyğun olaraq kursantlarla tədris dövründə nəzəri, praktiki dərslər və qoşun təcrübəsi təşkil olunaraq keçirilib. Tədrisdə əsas diqqət ordumuzun arsenalına qəbul olunmuş yeni silahların və hərbi texnikaların dərindən öyrənilməsinə, müasir silah növlərinin döyüş şəraitində bacarıqla istifadə edilməsinə yönəldilib.

Naxçıvan Qarnizonunun rəisi general-leytenant Kərəm Mustafayevin təbrikini şəxsi heyətə çatdıran general-mayor Fazil Ağalarov bildirib ki, hazırda Silahlı Qüvvələrimizdə hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin yüksəldilməsi qarşımızda duran vacib məsələlərdəndir. Bu gün peşəkar hərbi qulluqçu kimi, buraxılış mərasimi keçirilən gizirlərin və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığının müasir tələblər səviyyəsində olması ordumuzun uğurlarındandır.

Təbrik oxunduqdan sonra kursu müvəffəqiyyətlə bitirən məzunlara sertifikat və hədiyyələr təqdim edilib, nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçular mükafatlandırılıb.



Xatirə lövhələrinə buraxılış emblemləri vurulub və məzunların tribuna önündən təntənəli keçidi olub.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar Azərbaycan Ordusunda silsilə tədbirlər keçiriləcək

Azərbaycan Respublikası Prezidentinin 20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında Sərəncamının icrası ilə əlaqədar Müdafiə Nazirliyində tədbirlər planı təsdiq edilib.

Plana əsasən, Azərbaycan Ordusunda şəxsi heyətə parlaq vətənpərvərlik nümunələrinin təbliğ edilməsi, mənəvi və döyüş ruhunun yüksəldilməsi istiqamətində silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulub.

Tədbirlər çərçivəsində hərbi qulluqçular Şəhidlər xiyabanlarını ziyarət edəcək, Müdafiə Nazirliyinin hərbi hissə, müəssisə və təşkilatlarında 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar anım mərasimləri təşkil olunacaq.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzində, Hərb Tarixi Muzeyində kitab, foto və rəsm sərgilərinin, eləcə də səyyar-təşviqat qruplarının cəbhə bölgəsində yerləşən hərbi hissələrin şəxsi heyəti ilə görüşlərinin təşkili, xüsusi təyinatlı təhsil müəssisələrində və hərbi hissələrdə "20 Yanvar qəhrəmanlıq və qürur günümüzdür" şüarı altında ədəbi-bədii kompozisiyaların təqdim edilməsi, bədii və sənədi filmlərin nümayişi, "dəyirmi masa" və tematik gecələrin və digər tədbirlərin keçirilməsi nəzərdə tutulub.

## Yanvarın 8-dək Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsait

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli 755 nömrəli Fərmanı ilə təsdiq edilmiş Silahlı Qüvvələrə Yardım Fonduna cari il yanvarın 8-dək 106.891.365,09 AZN, 213.577.88 ABŞ dolları, 17.566 avro və 5000,0 rubl vəsait daxil olub.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***10 yanvar 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Quşçu Ayrım kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Şıxlar, Yusifcanlı, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

### Nümunəvi xidmət

# "Yeni ili qələbə inamı ilə qarşıladıq"

*Səngərdə bənzərsiz hisslər keçirirsən, gözəl anlar yaşayırsan. Hər şeydən əvvəl özünü döyüşçü kimi hiss edir, düşmənlə savaşa hazır dayanırsan.*



Mövqedə dayanmış zabiti, əsgəri torpağın müdafiəçisi, düşməni məğlub etməyə qadir bir qəhrəman kimi görürsən. Bir anlıq fikrimi məngirləmiş bu düşüncələr içində ətrafa göz qoyuram. Səngərə ayaq qoyan kimi torpağın gözəl ətrini, xoş qoxusunu duyuruq. Əsgərlər yurdumuzu bu qoxunu hiss edə-edə, duyaduya qoruyurlar. Torpağın bu gözəl ətri onların güc-qüvvəsini artıra-artıra məğlubedilməzlik zirvəsinə yüksəldir. Əsgərlərin üz-gözündən cəsarət yağır. Onların mübariz görkəminə baxdıqca üreyimdə öz-özümə: "Yurdumuzu qoruyan əsgər bu cür cəsur, qətiyyətli və məğlubedilməz olmalıdır. Biz erməni qəsbkarlarının işğalı altında olan torpaqlarımızı belə məğrur və igid əsgərlərlə azad edəcəyik. Bəli, hər bir Azərbaycan əsgəri belə yenilməz güclü və qüdrətlidir. Erməni qəsbkarlarını məğlub etməyə, yurdumuzdan qovmağa qadirdir", - deyirəm. Elə buna görə də hərbçilərimiz bizim üçün doğma və əzizdirlər.

Torpaqlarımızın keşiyində dayanan əsgərlərlə söhbətdən ürəyim açılırdı, qəlbim iftixar hissi ilə dolurdu. Yurdumuzu erməni işğalçılarından göz bəbəyi kimi qoruyan əsgərlərdən biri də Murad Bayramovdur. Muradın xidmətinin xeyli hissəsi arxada qalıb. Bu müddət ərzində o, bir əsgər kimi üzərinə düşən döyüş tapşırıqlarının öhdəsindən layiqincə gəlib, həmişə nümunəvi olmağa çalışıb. Xidmətinə məsuliyyətlə yanaşdığına görə məqsədinə, amalına çatıb. İnsan istəyinə yetişəndə həmişə xoş hisslər keçirir. İndi əsgər Murad Bayramov da bu hisslərin ağuşundaydı, çünki arzusuna çatmışdı.

Əsgər Murad Bayramov dedi ki, Vətənə xidmət etmək hər birimizin müqəddəs borcudur. "Bu borc təkcə əsgəri xidmətdə olduğumuz dövrlə tamamlanmır. Biz Vətən qarşısındakı övladlıq borcumuzu ömrümüz boyu özümüzlə daşımalıyıq. Deməli, həmişə əsgər kimi döyüşə hazır olmalı, yurdumuzu göz bəbəyimiz kimi qorumalıyıq. Bu, mənim üçün ən böyük iftixardır. Xidmətə çağırıldan sonra qısa müddət ərzində hərbi bilikləri dərindən mənimsəyib püxtələşdim. Günlər ötüb arxada qaldıqca bacarıqlı və bilikli bir əsgər oldum. Buna görə bizə təlim keçən təcrübəli zabitlərə minnətdaram. Bir əsgər, bir hərbçi kimi düşünürəm ki, bu gün qarşımızda mühüm vəzifələr dayanır. Ən böyük vəzifəmiz torpaqlarımızı işğaldan azad etməkdir. Buna nail olacaq, xalqımızı qələbə müjdəsi ilə sevindirəcəyik.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü və Yeni ili qələbə inamı ilə qarşıladıq. Hər birimizin döyüş əzmi, qələbə ruhu bu inam üçündü. Ali Baş Komandanın döyüş əmrini qələbə ilə tamamlayacağıq. Biz qələbə sevincini qalib əsgər kimi yaşamaq istəyirik. Gələn Yeni ildə əsgərlərimiz işğaldan azad edəcəyimiz torpaqlarda xidmət edəcəklər. Biz buna əminik!.."

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**
**1. 1980-ci illərin sonlarında yaranmış ictimai-siyasi vəziyyət və 20 Yanvar faciəsini doğuran səbəblər.**
**2. 20 Yanvar faciəsinin Azərbaycan milli-azadlıq hərəkatında yeri və rolu.**

## Mövzu: 20 Yanvar faciəsi xalqımızın qan yaddaşıdır.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu dərsə hazırlaşarkən dövri mətbuatda dərc olunan 20 Yanvar faciəsinə həsr olunmuş yazılardan və digər materiallardan istifadə etməli, dərsin zamanın tələbləri səviyyəsində keçirilməsini təmin etməli, mövzunun tarixi əhəmiyyətini, aktuallığını açıb göstərməli, 20 Yanvar faciəsi ilə bağlı qəbul olunmuş rəsmi sənədləri şəxsi heyət üçün geniş şəkildə işıqlandırmalıdır.*

### *1980-ci illərin sonlarında yaranmış ictimai-siyasi vəziyyət və 20 Yanvar faciəsini doğuran səbəblər*

1980-ci illərin axırlarında Azərbaycanda ictimai-siyasi vəziyyət kəskinləşdi. Keçmiş Sovet İttifaqında gedən proseslər, ölkə rəhbərliyinin uğursuz "yenidənqurma" siyasəti, iqtisadi islahatların düzgün aparılmaması, milli siyasət sahəsində buraxılan kobud səhvlər bütün respublikalarda olduğu kimi, Azərbaycanda da milli-azadlıq hərəkatının geniş vüsət almasına səbəb oldu. Azərbaycanda ictimai-siyasi vəziyyətin kəskinləşməsinin əsas səbəblərindən biri də Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etməsi, uydurma "Dağlıq Qarabağ problemi"nin ortaya atılması idi. SSRİ rəhbərliyindəki havadarlarına arxalanan ermənilərin Azərbaycanın ərazilərinə iddiaları və dinc əhaliyə qarşı azğın cinayətləri haqlı olaraq xalq kütlələrinin hiddətinə səbəb oldu. 1988-ci ilin noyabr-dekabr aylarında keçirilən ümumxalq mitinqləri, 1989-cu il dekabrın 31-də Naxçıvanda Azərbaycan-İran sərhədinin sökülməsi SSRİ rəhbərliyini qorxuya salmaya bilməzdi. Ona görə də SSRİ Dövlət Təhlükəsizlik Komitəsi (DTK) Azərbaycanda xalq hərəkatının yatırılmasına əlverişli zəmin yaratmaq üçün Bakıda, Naxçıvanda, Lənkəranda, Cəlilabadda, Neftçalada və digər bölgələrdə təxribatlar törədərək ermənilərin və rusların talanını təşkil etdi.

1990-cı il yanvarın 16-da ermənilər silahlı dəstə ilə Naxçıvan Muxtar Respublikasının Kərki kəndinə hücum edərək evləri yandırdılar və köməyə gələn olmadığından kəndi axşama qədər müdafiə edən sakinlər sonra tərk etməyə məcbur oldular.

Yanvarın 18-də ermənilər Sədərəyə güclü hücuma keçdilər. Bütün Naxçıvan əhalisi ayağa qalxaraq qısa müddətdə Sədərəkdən uşaqları, qadınları və qocaları çıxardaraq düşmənə ciddi müqavimət göstərdilər və həmin hadisədə 8 nəfər şəhid oldu.

Bakıda isə gərginlik getdikcə artır, KP MK-nın binası qarşısında mitinq ara vermir və mitinq iştirakçıları respublika rəhbərliyinin istefasını qətiyyətlə tələb edirdilər. Kütləvi ixtişaşların qarşısını almaq bəhanəsi əldə etmiş SSRİ rəhbərliyi 1990-cı ilin yanvar ayında Bakıya qoşun hissələri yeritməyə başladı.

Yanvarın 18-də televiziya ilə çıxış edən SSRİ və Azərbaycan rəhbərliyinin nümayəndələri respublika əhalisini əmin edirdilər ki, Bakıda fövqəladə vəziyyət tətbiq edilməyəcəkdir və belə tədbir nəzərdə tutulmayıb. Ancaq bu vaxt DTK-nın diviziyasının və desant hissələrinin Bakıya atılması başa çatmaqda idi. Onların birinci hissəsi isə yanvarın 12-də gətirilmişdi. Bu hərbi hissələrdə Şimali Qafqazda yaşayan ehtiyatdan çağırılan ermənilər də var idi.

1990-cı il yanvarın 19-da isə Mixail Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. Lakin əhalinin bundan məlumatsız qalması üçün SSRİ DTK-nın "Alfa" qrupu tərəfindən yanvarın 19-da saat 19:27-də Azərbaycan televiziyasının enerji bloku partladıldı, respublikada televiziya verilişləri dayandırıldı. Yanvarın 19-dan 20-nə keçən gecə heç bir xəbərdarlıq edilmədən şəhərə daxil olan sovet qoşun hissələri küçələrə çıxıb öz etirazlarını bildirən dinc əhalini pulemyotlardan və avtomatlardan atəşə tutdu. Həmin gecə Bakının müxtəlif rayonlarında sovet əsgərləri tərəfindən 131 insan qətlə yetirildi, 700-dən artıq vətəndaş yaralandı və xəsarət aldı. 20 Yanvar faciəsində azərbaycanlılarla yanaşı, Bakıda yaşayan 6 rus, 3 tatar, 3 yəhudi həlak oldu. Qeydə alınan 700-dən çox yaralının 25-i qadın, 20-si uşaq idi.

Bakı şəhərinə 20 Yanvar tarixindən fövqəladə vəziyyət tətbiq olunması haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin 19 yanvar tarixli fərmanı isə ancaq yanvarın 20-də səhər saat 6-dan zirehli maşınlardan xalqa elan edilirdi. Elə həmin gün ərzində 5 nəfər dinc sakin imperiya ordusu tərəfindən güllələnir və Bakıda fövqəladə vəziyyət rayonunun komendantı general-leytenant Dubinyakın əmri də elan olunur. Əmrdə deyilirdi ki, vətəndaşların təhlükəsizliyinin qorunması, müəssisələrin iş rejiminin saxlanması, kütləvi ixtişaşların olmaması üçün yanvarın 20-dən komendant saatı elan edilir.

Sovet qoşunları fövqəladə vəziyyət elan olunmayan rayonlara - yanvarın 25-də Neftçalaya, bir gün sonra isə Lənkərana yeridildi, nəticədə hər iki rayonda dinc insanlar qətlə yetirildi. Beləliklə, sovet qoşunlarının Bakıya və Azərbaycanın digər rayonlarına hərbi müdaxiləsi nəticəsində öldürülən insanların sayı rəsmi olaraq 147-yə çatdı.

Yanvarın 21-də o zaman Moskvada yaşayan ümummilli liderimiz Heydər Əliyev heç bir təhlükəyə baxmayaraq, Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək baş vermiş faciə ilə əlaqədar xalqımıza başsağlığı verdi və mətbuat konfransı keçirdi. Başda Mixail Qorbaçov olmaqla, Bakıdakı terror aktına rəvac verən hakimiyyət nümayəndələrini və hərbçiləri cinayətkar, onların isə bütöv bir xalqa qarşı edilən tarixi cinayət adlandıraraq bu vəhşiliyə etiraz əlaməti olaraq Kommunist Partiyası sıralarından çıxdığını bəyan etdi. Xüsusilə qeyd etmək lazımdır ki, keçmiş sovet ordusunun həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz, insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi tarixdə qalacaq.

Sabiq SSRİ prezidenti Mixail Qorbaçov 1995-ci ilin aprel ayında Türkiyədə səfərdə olarkən 1990-cı il yanvar qırğınından bəhs edərkən, "Bakıda fövqəladə vəziyyət elan etmək və oraya qoşun göndərmək mənim siyasi həyatımda ən böyük səhvim idi" deyərək öz günahını etiraf etmişdir.

### *20 Yanvar faciəsinin Azərbaycan milli-azadlıq hərəkatında yeri və rolu*

Azərbaycan xalqı öz qəhrəman övladlarının fədakarlığını yüksək qiymətləndirərək hər il 20 Yanvarda onların əziz xatirəsini dərin ehtiramla yad edir. 20 Yanvar hadisələri xalqımızın milli mənliyinə, milli azadlıq ruhuna qarşı təcavüz idi. Lakin Azərbaycan xalqı öz qürurunu itirmədi, onun iradəsi qırılmadı. Xalqımızın qan yaddaşına silinməz faciə kimi yazılmış 20 Yanvar, eyni zamanda, xalqımızın tarixində bir qəhrəmanlıq səhifəsidir. Biz 20 Yanvarı milli matəm, hüzn günü kimi qeyd edirik, ancaq o müdhiş gecəni həm də iftixar hissi ilə xatırlayırıq. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqına qarşı törədilmiş cinayət, tökülmüş nahaq qanlar və insanların vəhşicəsinə qətlə yetirilməsi Azərbaycan xalqının müstəqillik uğrunda mübarizə əzmini qıra bilmədi. SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı törətdiyi bu qanlı cinayət xalq kütlələrini birləşdirərək onların mübarizliyini daha da artırdı. Həmin gecə Azərbaycan xalqı özünün yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini və azadlıq uğrunda mübarizə əzmini bütün dünyaya bəyan etdi. Məhz bu əzmin, iradənin sayəsində xalqımız müqəddəs arzusuna çatdı, milli azadlığa qovuşdu və müstəqil dövlət kimi dünya birliyinə daxil oldu.

Ümummilli liderimiz Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan tarixində Qanlı Yanvar faciəsi kimi yadda qalan 1990-cı ilin 20 Yanvar hadisələrinin səbəbləri və nəticələri daha dəqiq araşdırıldı. Müstəqil Azərbaycan Respublikası 1994-cü ildə 20 Yanvar faciəsinin hərbi təcavüz və cinayət kimi tam siyasi-hüquqi qiymətini verərək bu hadisələrin təşkilatçılarının cəzalandırılmasını tələb etdi.

Sonrakı illərdə qəbul olunmuş rəsmi sənədlərdə də 20 Yanvar gününün Azərbaycan tarixində ölkəmizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda qəhrəmanlıq rəmzi kimi müstəsna əhəmiyyəti yüksək qiymətləndirilmişdir. Belə ki, yanvar faciəsində qətlə yetirilənlərin, şəhid ailələrinin problemlərinin dövlət səviyyəsində həlli istiqamətində böyük tədbirlər həyata keçirilir. 2006-cı il yanvarın 19-da ölkə başçısının fərmanı ilə 20 Yanvar şəhidlərinin ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edildi. Dövlət başçısının Şəhidlər xiyabanı kompleksinin yenidən qurulması ilə bağlı sərəncamı Vətən şəhidlərinin xatirəsinə ehtiramın daha bir nümunəsinə çevrildi. 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində daha bir addım metronun "20 Yanvar" stansiyasının üzərindəki dairədə xatirə kompleksinin yaradılması oldu. 2010-cu il yanvarın 20-də Bakının Yasamal rayonundakı "20 Yanvar" dairəsində memorial abidə kompleksinin açılışı oldu. 20 Yanvar faciəsində şəhid olanların xatirəsini bu gün hörmətlə yad edərkən fəxrlə deyə bilərik ki, onların uğrunda canlarını qurban verdikləri müstəqilliyin əldə olunmasından artıq illər keçmişdir. Müstəqil Azərbaycan Respublikası dünya dövlətlərarası münasibətlər sistemində öz yerini tutaraq bütün dünyaya sübut etmişdir ki, müstəqilliyimiz əbədidir və dönməzdir. Ancaq müstəqilliyimizin ilk illərində 1991-1993-cü illərdə Ermənistanın Azərbaycana ədalətsiz ərazi iddiası və təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal olundu və bu günə qədər ərazi bütövlüyümüz bərpa olunmamışdır. Ona görə Azərbaycan Ordusunun hər bir əsgəri, giziri və zabiti bir daha dərk etməlidir ki, müstəqil Azərbaycanın ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun, bərpa etməliyik.

20 Yanvar müqəddəs "Şəhid" kəlməsini yenidən bütün tarixi məzmunu ilə dilimizdə canlandırdı. Əsrin əvvəllərində milli mənliyimiz və müstəqilliyimiz uğrunda şəhid olanların basdırıldığı yer sovet dövründə Dağüstü park adı ilə əyləncə yerinə çevrilərək xalqın yaddaşından silinmişdi. İndi isə müstəqilliyimiz, milli mənliyimiz və torpaqlarımızın azadlığı uğrunda canını fəda edən oğulların dəfn olunduğu bu yer yenidən xalqın ziyarətgahına çevrilib. Şəhidlər xiyabanı - dünənimizi bu günlə, bu günümüzü sabahla birləşdirən, xalqın iradəsi və qətiyyətinin nümayiş olunduğu müqəddəs bir məkandır.

Azərbaycanın istiqlalı uğrunda canlarını qurban verən şəhidlərimizin əbədi abidəsi hər bir azərbaycanlının ürəyində ucalır. Şəhidlərin uğrunda canlarını qurban verdiyi Azərbaycan dövləti bu gün beynəlxalq münasibətlər sistemində söz sahibidir. Özünün xarici siyasəti ilə böyük uğurlar qazanan Azərbaycan regionda və dünyada iqtisadi qüdrətinə, siyasi sabitliyinə görə xüsusi nüfuz sahibinə çevrilib.

Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Ermənistan Respublikası tərəfindən işğal olunmuş torpaqlarımızın azad olunması sahəsində görülən işlərlə bağlı Azərbaycan dövlətinin rəsmi mövqeyini bəyan edərək demişdir: "Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

**Qeyd:** *Artıq 2020-ci tədris ilinin hazırlıq planına əsasən, hərbi hissələrdə döyüş və ictimai-siyasi hazırlıq dərsləri başlanmışdır. Qarşıda şəxsi heyəti gərgin dərs prosesi, çöl məşğələləri və taktiki təlimlər gözləyir. Azərbaycan Ordusunun hərbi qulluqçusunun bu dərslərdə və təlimlərdə əldə etdiyi yüksək nailiyyətlər, hər bir uğur Vətənimizin ərazi bütövlüyünün bərpası uğrunda müqəddəs müharibədə qələbəyə bizi daha da yaxınlaşdırır. Müasir döyüşdə ancaq yüksək döyüş hazırlıqlı, silahların sirlərinə mükəmməl yiyələnmiş, mənəvi-psixoloji və fiziki cəhətdən dözümlü olan əsgər qalib gələ bilər. Hər bir Azərbaycan əsgəri bu keyfiyyətləri əldə etmək üçün komandirlər tərəfindən keçirilən tədris proqramlarını, hərbi vərdişləri yaxşı mənimsəməli, onları döyüşdə tətbiq etməyi bacarmalıdır ki, müstəqilliyimiz və ərazi bütövlüyümüz uğrunda həlak olmuş şəhidlərimizin qisasını almağa hazır olsun.*

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# 20 Yanvar qəhrəmanlıq və qürur günümüzdür




*Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyevin sərəncamı ilə "20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə bağlı tədbirlər planı" təsdiq edilib. Tədbirlər planı Azərbaycan Respublikası Prezidentinin 20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında 2019-cu il 13 dekabr tarixli Sərəncamına əsasən hazırlanıb. Plana əsasən, respublikanın şəhər və rayonlarında, idarə və təşkilatlarında 20 Yanvar faciəsinin Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizənin rəmzi kimi qeyd olunması ilə bağlı tədbirlər, 20 Yanvar hadisələrinin mahiyyətini əks etdirən konfrans, toplantı və mühazirələr təşkil ediləcək, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşalar, bədii və sənədli filmlər nümayiş olunacaq. 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə bağlı tədbirlər kütləvi informasiya vasitələrində geniş işıqlandırılacaq. Dünya ictimaiyyətinin diqqətini bu faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəlikləri və icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar hadisələri barədə müxtəlif dillərdə materialların hazırlanması, nəşri və yayılmasının təmin olunması barədə müvafiq qurumlara tapşırıqlar verilib. Tədbirlər planına əsasən, respublikanın bütün təhsil müəssisələrində faciəyə həsr edilmiş xüsusi dərs keçiriləcək, 20 Yanvar şəhidlərinin ailələrinə humanitar yardımlar göstəriləcək, Şəhidlər xiyabanı ərazisində lazımi işlər aparılacaq, faciə qurbanlarının xatirəsinə həsr olunan dini mərasimlər təşkil ediləcək.*

*Bundan başqa, paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər xiyabanına ziyarətinin təşkili, saat 12:00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə əlaqədar hüzn əlaməti olaraq Azərbaycanın dövlət bayraqlarının endirilməsi və digər tədbirlər planlaşdırılır.*



Xalqımızın qan yaddaşına yazılan 20 Yanvar faciəsi zaman etibarilə bizdən uzaqlaşsa da, sanki dünən baş verib. Bakıda Qanlı Yanvar faciəsindən 30 il keçməsinə baxmayaraq, onun ağrı-acıları bu gün də qəlbimizi göynədir, qırmızı qərənfillərə bürünmüş şəhid cənazələrini çiyinlərində aparan insan seli, izdiham hər zaman gözümüzün önündən kino lenti kimi keçib gedir. O gecə Bakı qan içində boğuldu. Azərbaycan 70 il əvvəl olduğu kimi, yenə faciəyə düçar edildi. Xalqımızın haqq səsini boğmaq istəyən o zamankı Kreml rəhbərləri Bakıda Qanlı Yanvar qırğınını törətdi...

Bu faciəni unutmamalıyıq! Unutsaq, azadlığımızın, müstəqilliyimizin qədrini bilmərik.

20 Yanvar şəhidləri müstəqilliyimizin ilk qaranquşları idi. Ona görə də 20 Yanvarı təkcə faciə, hüzn günü adlandırmaq olmaz. Bu hadisə xalqımızın müstəqillik, azadlıq, demokratiya, ərazi bütövlüyü uğrunda apardığı mübarizənin təntənəsidir. Eyni zamanda, bütün dünyanı heyrətdə qoyan mərdlik, igidlik, haqsevərlik uğrunda mübarizənin təntənəsidir.

Məlumdur ki, ötən ilin sonlarında - 13 dekabr tarixində Azərbaycan Prezidenti İlham Əliyev "20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında" sərəncam imzaladı. Sərəncamda bildirilir: "Ermənistan SSR-in respublikamıza ərazi iddialarına, radikal erməni millətçiləri tərəfindən qızışdırılan separatizmə və soydaşlarımızın əleyhinə törədilən kütləvi zorakılıqlara SSRİ rəhbərliyinin bilavasitə və ya dolayısı ilə dəstək verməsi, habelə Azərbaycanın o zamankı rəhbərlərinin cinayətkar qətiyyətsizliyi və milli maraqlara zidd addımları xalqımızı respublikanın ərazi bütövlüyünün qorunması naminə ayağa qalxmağa sövq etdi. Beləliklə, respublikada geniş sosial spektrli xalq hərəkatı yarandı və proseslərin gedişi onun tədricən milli azadlıq hərəkatına çevrilməsinə zəmin yaratdı."

XX əsrin sonlarında Azərbaycan xalqının yaşadığı 20 Yanvar faciəsi keçmiş Sovet İttifaqının siyasi iflası dövründə Moskva rəhbərliyinin sadəcə bir cinayət əməli olmayıb. Bu əməl rus, erməni şovinizminin xalqımıza qarşı növbəti etnik vəhşiliyi idi. Həmin dövrdə yenidənqurma siyasəti, yəni, demokratikləşmə prosesi təkcə Azərbaycanda deyil, digər ittifaq respublikalarında da gedirdi. Sovet rəhbərliyi ölkədə baş verən demokratik hərəkatlara qarşı güc tətbiq etmişdi. Lakin bu digər respublikada heç də Azərbaycanda olduğu kimi böyük faciəyə səbəb olmadı. Faciənin böyüklüyü bir tərəfdən o zamankı Azərbaycanın siyasi rəhbərliyinin səriştəsizliyi və fitnəkarlığı ilə izah olunsa da, digər tərəfdən rus, erməni şovinizminin birləşməsi kimi də izah olunmalıdır. Bu şovinizm 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıya bir gecəlik çıxarılan xüsusi təyinatlı, xüsusi amansızlıqları ilə seçilən hərbi birləşmələrin milli tərkibinin erməni mənşəli olmasında və onların istifadə etdikləri silah-sursatın öldürücü xüsusiyyətlərinə görə beynəlxalq hüquq normaları ilə istifadəsi qadağan edilmiş hərbi təchizat olmasında özünü göstərirdi.

...1990-cı il yanvarın 19-dan 20-ə keçən gecə - o qanlı şənbə gecəsi imperiya silahlarından güllə yağmuru yağdı əliyalın, silahsız millətimizin üzərinə. Güllələrdən deşik-deşik oldu nəhəng binaların divar sinələri. 70 illik imperiya zülmətindən sıyrılıb öz müstəqilliyinə doğru addımlayan xalqımızın azadlıq arzusuna atılırdı bu güllələr.

Heç kəsə aman vermədən, heç kəsə rəhm etmədən, ağzı süd qoxulu günahsız körpələrimizdən müdrik ağsaqqallarımıza, ağbirçəklərimizə, cavanlarımızadək qarşılarına çıxan bütün dinc əhali güllələbaran edildi. Həmin faciəli gecədə vəhşi imperiya gülləleri son nöqtə qoydu neçə-neçə yurddaşımızın hələ doğulmamış sabahlarına.

Qeyd etdiyimiz kimi, əksəriyyəti ermənilərdən ibarət olan Sovet ordusunun törətdiyi qətl və cinayətlər yanvarın 20-dən sonra da davam etdi. Keçmiş İttifaqın rəhbəri, bu qırğınların törədicisi M.Qorbaçovun ən yaxın məsləhətçilərindən biri olan akademik A.Aqanbekyanın hələ 1987-ci ilin noyabrın ortalarında Fransanın erməni institutu assosiasiyasının üzvləri ilə görüşərkən guya Qarabağın qədim erməni torpağı olduğunu iddia etməsi qanlı faciələrə başlamaq üçün bir siqnal idi. Qorbaçova yaxın olan Brutens, Şahnazarov, Sitaryan, Xaçaturov və digər qatı şovinist erməni emissarlarının Qarabağı Azərbaycandan qoparmaq üçün sonadək mübarizə aparacaqları xarici dövlətlərə və oradakı kəşfiyyat orqanlarına yaxşı məlum idi. Qorbaçov özü də artıq ermənilərin dirijor çubuğu ilə durub-oturmaqla ölkəni "idarə edirdi." Xatırladaq ki, o vaxt daşnak Zori Balayanın xalqımıza qarşı böhtan və iftiralarla dolu "Ocaq" kitabı Qorbaçovun stolüstü kitabına çevrilmişdi. Məhz ermənipərəst Qorbaçovun xeyir-duasından sonra vəhşi daşnaklar Azərbaycana doğru yürüşə başladılar.



Əliqanlı imperiyanın Azərbaycanda törətdiyi faciələr bununla tükəndimi? Əsla! 20 Yanvardan sonra baş verən faciələr sırasına dünyanın ən dəhşətli hadisələrindən biri Xocalı soyqırımı, Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Qarabağın bəzi ərazilərində baş verən qanlı səhifələr də əlavə olundu. Vəhşi imperiyanın təpədən-dırnağadək silahlandırdığı erməni faşizmi ilə qeyri-bərabər döyüşlərdə 30 minə yaxın qəhrəman, mərd oğullarımızı itirdik. Ərazilərimizin 20 faizi işğal olundu, 1 milyondan artıq yurddaşımız öz doğma ata-baba torpağından didərgin düşdü. Lakin vahid əqidə bayrağı altında birləşib öz müstəqilliyinə qovuşan xalqımız sarsılmadı, işıqlı gələcəyə olan böyük inamını itirmədi.

İnamla demək olar ki, 70 il ərzində qırmızı imperiyanı 20 Yanvar hadisələri qədər sarsıdıb diz çökdürən ikinci bir hadisə olmayıb. 20 Yanvar neçə-neçə günahsız millətin azadlıq arzularını boğub, onları öz müti köləsinə döndərən qanlı imperiyanın maska arxasındakı simasını və çirkin niyyətlərini həm onun sərhədləri daxilindəki bütün xalqlara, həm də beynəlxalq aləmə tam çılpaqlığı ilə açıb göstərdi. Qətiyyətlə deyə bilərik ki, 20 Yanvar hadisələri ittifaq daxilindəki digər xalqların da milli azadlıq hərəkatının sürətlənməsində müstəsna rol oynadı. İlk baxışda zülmün və ədalətsizliyin haqq və ədalət üzərində təntənəsi kimi görünən 20 Yanvar, əslində, yadelli orduların, tankların, topların, ən müasir hərbi silahların belə xalqın sarsılmaz qranit birliyi və polad iradəsi qarşısında nə qədər gücsüz olduğunu, zahiri qələbənin, əslində, biabırçı məğlubiyyətdən başqa bir şey olmadığını bariz şəkildə nümayiş etdirdi.

O faciəli günlərdən bizi 30 illik zaman kəsiyi ayırır. 30 ildir ki, Dağüstü parkdakı Şəhidlər xiyabanı və Azərbaycanın azadlığı uğrunda mübarizədə şəhid olanların xatirəsinə ucaldılmış "Əbədi məşəl" xatirə kompleksi xalqımızın ən möhtəşəm ziyarətgahına, ən müqəddəs and yerinə çevrilib. Çünki orada əbədiyyət yuxusuna gedənlər Vətən yolunda, xalq yolunda, bugünkü azadlığımız və əbədiyaşar müstəqilliyimiz yolunda şəhid olublar. Vətən və xalq yolunda həlak olanların isə ömrü Vətənin və xalqın ömrü qədərdir. Bu gün Şəhidlər xiyabanı təkcə Dağüstü parkda yox, doğma torpaqlarımızın erməni faşizminin işğalından xilası naminə mübarizəyə hər an hazır olan Azərbaycan Ordusunun hər bir zabit və əsgərinin iç dünyasındadır.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Şəhid, müharibə veteranları və hərbçi övladları üçün “Yeni il” konsert proqramı keçirildi

*Müdafiə nazirinin tapşırığına əsasən, bayram günlərində Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində şəhid, müharibə veteranları və hərbçi övladları üçün "Yeni il" konsert proqramı keçirildi.*



Məktəb tətili günlərində təşkil olunan bayram şənliyində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin, Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsinin Qadınlar və Hərbi Qulluqçuların Ailələri ilə iş şöbəsinin nümayəndələri, şəhid, müharibə veteranları, hərbçi övladları və ictimaiyyət nümayəndələri iştirak etdilər.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi mayor İlkin Qayıbov 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə tədbir iştirakçılarına təbriklərini çatdıraraq bildirdi ki, bu günü xalqımız, dünyanın bütün ölkələrində yaşayan həmvətənlərimiz böyük coşqu ilə qeyd edirlər. "Qədim tarixə malik xalqımız bu əlamətdar bayramı uzun illərdən bəri yaranmış, qorunub saxlanılmış ənənələrinə, mədəniyyətinə, tarixi köklərinə xas olan xoş amallarla, duyğularla keçirir. Bu bayram ildən-ilə daha da geniş keçirilərək, ürəklərində Vətən eşqi, milli-mənəvi birlik hissləri bəsləyən hər bir soydaşımız tərəfindən güclü dəstək alır.

Milli səviyyədə keçirilən bayram ulu öndər Heydər Əliyevin uzaqgörənliyinin, xalqı öz ətrafında birləşdirmək məharətinin nümayişidir...".

Qadınlar və Hərbi Qulluqçuların Ailələri ilə iş şöbəsinin müdiri Zümrüd Səmədova vurğuladı ki, ümummilli liderimiz Heydər Əliyevin milli birlik və azərbaycançılıq ideyaları bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. “Dövlətimizin başçısı dünya azərbaycanlılarının həmrəyliyinə verdiyi töhfələrlə ölkə hüdudlarından kənarda yaşayan azərbaycanlılarda milli ruhun yüksəlməsinə, milli-mənəvi dəyərlərimizin təbliğinə və qorunmasına əlverişli şərait yaratmaqla, dünya azərbaycanlılarının dərin rəğbətini qazanıb".

Zümrüd Səmədova onu da qeyd etdi ki, bu əlamətdar gün dünyanın 70-dən çox ölkəsində yaşayan azərbaycanlılar tərəfindən qeyd edilir. "Dünyaya nümayiş etdirdiyimiz bu həmrəylik, birlik bizim qüdrətimizdir. Azərbaycançılıq ideologiyası ətrafında birləşən hər bir soydaşımız harada yaşamasından asılı olmayaraq Vətənimizin inkişafına, dünya birliyində layiqli yer tutmasına, tanınmasına və ölkəmizlə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə obyektiv şəkildə çatdırılmasına töhfə verməyi özünə mənəvi borc bilməlidir...".

Tədbir Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin hazırladığı "Qış nağılı" adlı musiqili əyləncəli proqramla başa çatdı.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Heydər Əliyev adına AAHM-də müəllimlərə sertifikatlar təqdim edilib



*Müdafiə nazirinin tapşırığına əsasən, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təşkil edilmiş ixtisasartırma kursunu müvəffəqiyyətlə bitirən xüsusi təyinatlı təhsil müəssisələrinin müəllimlərinə sertifikatların təqdimetmə mərasimi keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, kursun keçirilməsində əsas məqsəd zabit kadrlarının hazırlanmasında müəllimlərin müasir tədris metodikası, pedaqogika və psixologiya elmlərinin yeniliklərindən, həmçinin informasiya-kommunikasiya texnologiyalarından geniş istifadəsini təmin etmək və digər bu kimi mövzularda bilik və bacarıqlarının təkmilləşdirilməsindən ibarətdir.

Sonda müəllimlərə sertifikatlar təqdim olunub.

## Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında illik fəaliyyət planı imzalanıb

Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında 2020-ci il üçün birgə fəaliyyət planı imzalanıb. Sənədə əsasən keçiriləcək tədbirlərin yeri, icra vaxtı, icraya məsul qurumlar və şəxslər müəyyən edilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, il ərzində Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində təşkil ediləcək görüşlərdə azərbaycançılıq ideyası, milli-mənəvi, mədəni dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilməsi, radikal dini cərəyanlar və ekstremizmlə mübarizə, mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında əməkdaşlıq və digər mövzularda tədbirlər keçiriləcək.

# Turnir və müsabiqələrin keçirilməsi ənənədir

Cəmşid Naxçıvanski adına Hərbi Liseydə kursantlar arasında mütəmadi olaraq keçirilən inşa müsabiqələrinin əsas məqsədi kursantların vətənpərvərlik ruhunda tərbiyə olunması və onlara qəhrəmanlıq hisslərinin aşılanmasıdır.

Növbəti bilik yarışmasında da kursantlar böyük həvəslə iştirak etdilər. İnşa müsabiqəsi komissiyasının sədri polkovnik-leytenant Ceyran Abbasova söhbət zamanı dedi ki, kursantlar arasında vətənpərvərlik mövzularında inşa müsabiqələrinin keçirilməsinin böyük tərbiyəvi əhəmiyyəti var. “Bu cür tədbirlər kursantların hərbi vətənpərvərlik ruhunda böyüməsinə müsbət təsir göstərir. Sabahımızın zabitləri təqdim edilən mövzularda inşalar yazdıqca həm bilikləri artır, həm də dünyagörüşləri genişlənir. Buna görə də belə maraqlı və əhəmiyyətli tədbirləri tez-tez keçiririk. Bu günlərdə keçirilən bilik yarışmasında 50-dən çox kursant iştirak edirdi. Müsabiqə maraqlı anlarla yadda qaldı. İnşa müsabiqəsi bir daha göstərdi ki, kursantlarımızın bilik və bacarıqları yüksək səviyyədədir. Gələcək zabitlərimiz daha bilikli və daha bacarıqlı olacaqlar.”

Bilik yarışmasında daha yaxşı nəticə göstərən kursant Rəşad Qumaşov "Bayraq mənliyimdir, bayraq kimliyim" mövzusunda yazdığı inşa ilə 1-ci yeri tutdu. Kursant Bəhruz Məmmədov bilik yarışmasının 2-cisi oldu. 3-cü yerə kursant Mehman Dadaşzadə çıxdı. Qaliblər sevinc içindəydilər. Onlar inşa müsabiqəsində layiqli yer tutduqlarına görə qürur hissi keçirirdilər. Kursantlar qazandıqları qələbəyə görə müəllimlərinə minnətdar olduqlarını bildirdilər.

İnşa yarışmasının qalibləri olan kursantlara Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının məsul işçisi Xoşqədəm Bağırova qiymətli hədiyyələr təqdim etdi. Yarışmada 1-ci yeri tutmuş kursant Rəşad Qumaşovun Azərbaycan dili və ədəbiyyat müəllimi Səbinə Qafarovaya Konfederasiyanın diplomu verildi.



* * *

Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Azərbaycanın Milli Qəhrəmanı Elşad Ədədovun xatirəsinə həsr olunmuş şahmat birinciliyi keçirildi.

Tədbirdə ümummilli lider Heydər Əliyevin, torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu, Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Hərbi liseyin zabiti mayor Rəşad Kazımov Milli Qəhrəman Elşad Ədədov haqqında tədbir iştirakçılarına məlumat verdikdən sonra 6 komandanın qatıldığı şahmat turnirinə start verildi. Yarış keçirilən zala sakitlik çökdü. Şahmat taxtası arxasında oturan kursantlar yarışda qalib gəlmək üçün daha çevik, daha əhəmiyyətli gedişlər edirdilər. Onlar komandalarını ən yüksək pilləyə çıxarmaq üçün bütün bacarıqlarını səfərbər etmişdilər. İştirakçılar fiqurları yerindən tərpətməzdən əvvəl, necə deyərlər, yüz dəfə ölçüb bir dəfə biçirdilər. Hakimlər də oyunun gedişini diqqətlə izləyirdilər.

Şahmat turnirində hər komandadan 3 əsas, 1 ehtiyat oyunçu iştirak edirdi. Qalib gələn idmançıya 1 xal verilirdi. Görüş heç-heçə başa çatanda xallar bölünürdü. Turnir beynəlxalq qaydalara uyğun olaraq dairəvi sistem üzrə keçirilirdi. Yarışın nəticələri həm fərdi göstəricilərə, həm də komanda göstəricilərinə əsasən müəyyənləşdirildi.

Beş gün davam edən yarışa yekun vurulanda məlum oldu ki, 2-ci bölüyün kursantları daha yaxşı nəticə göstərərək 1-ci yerə çıxıblar. 5-ci bölüyün kursantları 2-ci yeri tutublar.

Şəxsi birincilikdə kursant Mirkərəm Seyidov daha gözəl oyun nümayiş etdirərək birinci pilləyə yüksəlib. Kursant Tural Hüseynov ikinci yeri tutub. Kursant Natiq Rzayev isə birinciliyin üçüncüsü olub.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# "Fiziki hazırlığın artırılmasını diqqət mərkəzində saxlayırıq"



*Döyüş hazırlığının tərkib hissəsi kimi, fiziki hazırlığın əsgərlərimizin sağlamlığının möhkəmləndirilməsində və fiziki göstəricilərinin inkişafında böyük rolu var. Digər hərbi hissələrimizdə olduğu kimi, "N" hərbi hissəsində də şəxsi heyətin fiziki hazırlığı həmişə diqqət mərkəzində saxlanılaraq, günün nizam qaydasına uyğun məşğələlər keçirilir. Hərbi hissənin düşmənlə təmas xəttində yerləşməsinə baxmayaraq, müasir standartlara cavab verən idman şəhərciyi mövcuddur. Burada şəxsi heyətin fiziki hazırlıq məşğələlərinin səmərəli təşkili üçün hər cür şərait yaradılıb. Hərbi hissəyə gəlişimiz fiziki hazırlıq məşğələsinin vaxtına təsadüf etdi. Hərtərəfli diqqət və qayğı ilə əhatə olunan əsgərlərimiz leytenant Nurlan Bənnayevin göstərdiyi çalışmaları istəklə yerinə yetirirdilər. Hiss olunurdu ki, Vətən keşikçilərinin idmana marağı yüksəkdir.*

Məşğələ bitdikdən sonra hərbçilərimizlə həmsöhbət olmaq imkanı qazandıq. Əsgərlərimizin fiziki hazırlığından danışan zabit bildirdi ki, bölmə istənilən əmri icra etməyə həm fiziki, həm də praktiki cəhətdən hazırdır. "Döyüş meydanında düşmənə qalib gəlmək üçün dözümlü olmalı, cəld və çevik hərəkət etməlisən. Qarşıya qoyulan tapşırığın vaxtında, dəqiq yerinə yetirilməsində müntəzəm keçirilən fiziki hazırlıq məşğələlərinin rolu danılmazdır. Bu səbəbdən əsgərlərimizin fiziki hazırlığının artırılmasını diqqət mərkəzində saxlayırıq. İdman məşğələlərinin səmərəli keçirilməsi üçün bütün imkan və vasitələrdən istifadə edirik. Bölmənin şəxsi heyəti təyin olunmuş vaxtlarda idmanla məşğul olur. Əsasən məşğələlərdə fiziki güc tələb edən çalışmalara üstünlük veririk. Mütəmadi olaraq bölmələrarası müxtəlif idman yarışları keçiririk. Qalib komanda hərbi hissə komandanlığı adından mükafatlandırılır. Yoldaşının qalibiyyətini, onun sevincini görən əsgərlər çalışırlar ki, növbəti yarışın qalibləri olsunlar. Bu da əsgərlərimizdə mübarizə əzmini gücləndirir. Bu gün yarışda birinci olmaq istəyiylə alışıb-yanan döyüşçü, döyüşdə düşməni göz qırpmağa qoymayacaq."

Əsgər Əfqan Məmmədhüseynov hərbi hissədə nizam-intizamın, qarşılıqlı münasibətlərin güclü olduğunu bildirdi.

- Güclü, qüdrətli Azərbaycan Ordusunun əsgəri olmaqdan qürurlanıram, - deyə Vətənin müdafiəçisi söhbətə başladı. - Hərbi formanı geyindiyim andan üzərimə düşən məsuliyyəti dərk etdim. Vətəni qorumaq hər birimizin müqəddəs borcudur. Bunun üçün hərbi formanı daşıyacağımız anı gözləmək lazım deyil. Gənc yaşlarımızdan fiziki hazırlığımıza diqqət yetirməliyik. Unutmamalıyıq ki, qarşıda işğalda olan torpaqlarımız, xalqımızın qanına susayan düşmən dayanıb. Buna görə Ali Baş Komandan İlham Əliyevin döyüş əmrinə qədər praktiki biliklərimizi, psixoloji və fiziki hazırlığımızı artırmalıyıq. Komandirlərimizin öyrətdiklərini dərindən mənimsəyir, öyrəndiklərimizi təlimlərdə dəqiq, sərrast və tez yerinə yetiririk. İnanırıq ki, tezliklə xalqımıza Qələbə sevincini yaşadacağıq.



"Hərbçi olaraq fiziki hazırlığımızı daim diqqət mərkəzində saxlayırıq. Müntəzəm olaraq komandirlərimizin tabeliyində idmanla məşğul oluruq. Gündən-günə fiziki gücümüz artır, praktiki biliklərimizi təkmilləşdiririk. Bunun nəticəsidir ki, təlimlər zamanı verilən əmr və tapşırıqların öhdəsindən layiqincə gəlirik. Döyüşlərdə düşməni asanlıqla istər atəşlə, istərsə də əlbəyaxa döyüşlə məhv etməyə qadirik. İnanırıq ki, ailəmizin yanına qələbə sorağı ilə qayıdacağıq", - əsgər Seymur Məmmədli dedi.

Əsgərlər Samir Qasımov, Rəfxan Novruzov, İlkin Mirzəyev hərbi hissədə onlar üçün yaradılan sosial-məişət şəraitindən, göstərilən diqqət və qayğıdan danışaraq, yuxarı komandanlığa öz minnətdarlıqlarını bildirdilər. "İnanırıq ki, tezliklə Ali Baş Komandanın döyüş əmri ilə xalqımızın Qarabağ həsrətinə son qoyacağıq."

Əsgərlərimizin yerinə yetirdiyi çevik hərəkətlər onların fiziki hazırlıqlarının yüksək səviyyədə olmasından xəbər verirdi. İnanırıq ki, əsgərlərimiz fiziki güclərini döyüşlərdə göstərəcəklər. Qələbə gününə çox az qalıb.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

*Hərbi texnikalar, silahlar*

# MPARC zirehli avtomobili

Bu yaxınlarda Türkiyənin Machinery Production Group (MPG) şirkəti İstanbulda keçirilən İDEF-2019 beynəlxalq silahlanma sərgisində zədələnmiş hərbi texnika və zirehlərin daşınması üçün Tatra bazası əsasında hazırlanmış çoxməqsədli müasir MPARC zirehli avtokranını sərgi iştirakçılarına təqdim edib. Şirkət dörd nəfər hərbi qulluqçu üçün hesablanmış zirehli kabinəni kimyəvi, bakterioloji və nüvə hücumundan, həmçinin yanğından qorunmaq üçün mühafizə sistemi və vasitələri ilə təmin edib. Düşmənin canlı qüvvəsi ilə mübarizə aparmaq üçün kranın qülləsində məsafədən idarə olunan döyüş modulu quraşdırılıb. Onun xarici kamerası 360 dərəcə dairəvi görünüşü əks etdirir. Şirkət baza qismində öz zirehli təmir-evakuasiya maşınının təkər formulunu



8x8 Tatra şassisini seçib. Avtomobil 600 at gücündə Cummins turbodizelli mühərriklə təchiz edilib. MPARC avtokranın sürəti saatda 80 kilometr təşkil edir, ehtiyat hərəkəti isə 600 kilometrdir.

Təmir-evakuasiya işlərinin aparılması üçün nəzərdə tutulan maşının qabaq hissəsi 15 tona hesablanmış bucurqadla, eyni zamanda, 60 metr uzunluğunda trosla, arxa hissəsi isə 80 metr uzunluğunda trosla və 40,79 tonluq yükü dartma gücünə malik olan bucurqadla təchiz olunub. Bundan başqa maşının arxa hissəsində vasitələrin qismən yüklənməsi üçün 13 ton həcmində qaldırıcı çərçivə də quraşdırılıb. İstehsalçılar onu da qeyd edirlər ki, digər maşınlarda olduğu kimi, avtokranın yükqaldırması 40 tondan az olmayacaq. Avtomobil qatarının tam çəkisi - zirehli kranın və onun dartıcı nəqliyyat vasitələrilə birlikdə 90 tona qədərdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## PKK-nın qadın bölməsinin rəhbəri məhv edilib



Türkiyə Silahlı Qüvvələrinin və Milli Təhlükəsizlik Təşkilatının Qəndil bölgəsində birgə həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində PKK-ya daha bir sarsıdıcı zərbə vurulub.

Əməliyyat nəticəsində PKK terror təşkilatının qadın bölməsinin - PAJK-ın rəhbəri Əsmə Erat və onun sürücüsü məhv edilib.

Digər bir məlumatda isə bildirilir ki, İraqda və Suriyadakı PKK düşərgələrindən qaçan iki terrorçu Türkiyə ərazisinə gələrək təhlükəsizlik qüvvələrinə təslim olub.

## İspaniya Bağdaddan qoşunlarını çıxarır



NATO-nun İraqda beynəlxalq təlim missiyasının dayandırılması haqqında qərarı ölkənin paytaxtı Bağdadda yerləşən İspaniya hərbçilərinin qismən oradan çıxarılmasına gətirib çıxarıb.

İspaniya Müdafiə Nazirliyi xəbər verir ki, İspaniya kontingentinin əsas hissəsi - 550-dən çox hərbçi Bağdadın 50 kilometrliyindəki Besmayada yerləşir.

İspaniya hərbi qulluqçularının İraqda hərbi missiyasının başlandığı 2014-cü ildən etibarən İraqın yeni təhlükəsizlik qüvvələrinin azı 5 min əməkdaşı burada təlim keçib. Bundan əlavə, İspaniya hərbçiləri təlim verdikləri bölmələrin bəzi hərbi əməliyyatlarını müşahidə ediblər.

## Moqadişoda terror aktı nəticəsində azı dörd nəfər həlak olub



Somalinin paytaxtı Moqadişonun mərkəzi hissəsində minalanmış avtomobilin partladılması nəticəsində azı dörd nəfər həlak olub, on nəfər yaralanıb.

Bomba yüklü avtomobil nəzarət-buraxılış məntəqəsində saxlanılıb. Polis girişə icazə vermədikdə terrorçu-kamikadze partlayıcı qurğunu işə salıb. İnsidentin baş verdiyi nəzarət-buraxılış məntəqəsi insanların gur olduğu yerdə, parlament və Daxili Təhlükəsizlik Nazirliyinin binaları yaxınlığında yerləşir.

Hakimiyyət orqanları terror aktının "Əş-Şəbab" qruplaşması tərəfindən təşkil olunduğunu bildiriblər. Bundan bir müddət öncə, dekabrın 28-də Moqadişonun cənub-qərbində törədilən partlayış nəticəsində 80 nəfər, o cümlədən iki Türkiyə vətəndaşı həlak olmuşdu.

Somalidə fəaliyyət göstərən "Əş-Şəbab" qruplaşması "Əl-Qaidə" təşkilatı ilə sıx əlaqələrə malikdir. O, mərkəzi hökumətə qarşı silahlı mübarizə aparır və BMT-nin humanitar fəaliyyətinə maneçilik törədir.

## Çexiyanın hərbi kontingenti İraqda qalır



İraqda NATO missiyası çərçivəsində Çexiya hərbçilərinin kontingenti 40 döyüşçüdən ibarətdir. Daha beş çexiyalı polis İraq paytaxtında fəaliyyət göstərir. Onlar mütəxəssislərə İraq ordusu üçün hazırlanma çərçivəsində təlimat keçirlər.

Bu barədə Çexiyanın Müdafiə Nazirliyi məlumat yayıb.

Bundan əvvəl Çexiyanın Baş Naziri Andrey Babiş çexiyalı hərbçilərin İraqdan çıxarılması məsələsini istisna edib.

**AZƏRTAC-ın materialları əsasında**

### Payız küləkləri əsdiyi yerdə

Bir yerə yığılar bütün küləklər,
Payız küləkləri əsdiyi yerdə.
Qaçıb ürəyimə girər çiçəklər,
Payız küləkləri əsdiyi yerdə.

Allah əmri yoxsa göy niyə düşsün,
Qanmayan göynəyə-göynəyə düşsün.
Dayanıram, yarpaq çiynimə düşsün,
Payız küləkləri əsdiyi yerdə!

Yerimdən obaşdan oyanıb, durram,
Al qızıl qanıma boyanıb durram.
Yarın da yerinə dayanıb, durram,
Payız küləkləri əsdiyi yerdə!

Mən öz ürəyimi ələ verənəm,
Mən öz ürəyimi yola verənəm.
Mən öz ürəyimi yelə verənəm,
Payız küləkləri əsdiyi yerdə!

### Gəl qayıdaq könlümüzə

Bu dünyaya nahaq baxdıq,
Öyümüzü nahaq yıxdıq.
Könlümüzdən nahaq çıxdıq,
Gəl qayıdaq könlümüzə.

Deyirdin, gül yerdə olur,
Nə olur, güllərdə olur.
Allah könüllərdə olur,
Gəl qayıdaq könlümüzə.

Çaylar axıb Kürdən keçir,
Minlər gəlib birdən keçir.
Əsl yol könüldən keçir,
Gəl qayıdaq könlümüzə!

Çəməndə şehə bataqmı,
Dumanda, çəndə itəkmi?
Qovub kəpənək tutaqmı,
Gəl qayıdaq könlümüzə!

Özümüzü məhv etmərik,
Özümüzü dəfn etmərik.
Bir də belə səhv etmərik,
Gəl qayıdaq könlümüzə!

### Oxuyan yuva

Uçub bülbül yuvası,
Özü hanı, görəsən?
Hansı namərd uçurub,
Bu yuvanı, görəsən?

Kim günahla barışır,
Kim günahı unudur,
Qaranquşun qarğışı,
Durnanın ahı tutur.

Ancaq eşitməmişəm,
Bülbül qarğış eyləyib,
Üstünü kəsdikcə qəm,
"Alqış! Alqış!" söyləyib.

Üşüdüm ha, üşüdüm,
Dağdan alma daşıdım.
Ay bülbül yuvasını,
Uçuranlar, eşidin!

Əyirib otu bir-bir,
İlmə-ilmə toxuyur,
Bülbül qarğış edəmmir,
Uçmuş yuva oxuyur...

### Nə qədər yol var

Baxma el içindəsən,
Elə nə qədər yol var.
Gərəkdi insan oğlu,
Bilə, nə qədər yol var!

Deyimmi, yol hardadı.
Haqq hardasa, ordadı,
Gedək, uzaqlardadı
Lələ, nə qədər yol var!

Həyat birdir, ölüm bir,
Çıxaq yola gəlin bir!
Bilinmir ki, bilinmir,
Hələ nə qədər yol var!

Dərədədi, düzdədi,
Cığırdadı, izdədi.

*Könlüm şeir istəyir*

## Səmimi şeir səmimiyyətlə oxunur

*Əməkdar incəsənət xadimi Barat Vüsalın şeirləri şairlə oxucu mükaliməsi kimi oxunur, bu səbəbdən də düşündürücüdür. Düşündürücü poeziya başəri xarakterlidir. Şeirlərində təbiət fikrin təqdimatı baxımından bəzən simvollaşdırılır ki, bu da şeirin oxunaqlığını artırır. Vətənə, xalqa dəruni sevgi şair üçün dərin poetik məzmuna, məfkurəvi poetik fikirlərə işıq deməkdir;*

*Barat Vüsalın yaradıcılığı işıqlı yaradıcılıqdır. Müharibə, şəhidlik, şəhidlər, qələbə - şeirləri bu mövzuları da səxavətlə əhatələyən Barat Vüsalın yaradıcılığı səmimidir. Ona görə səmimiyyətlə oxunur...*

**"Azərbaycan Ordusu"**

Könüldədi, gözdədi,
Belə nə qədər yol var.

Barat, yoldu öldüyün,
Tapıb Haqqa yol, öyün.
Yol deyil bu gördüyün,
Yola nə qədər yol var!

### Dünyanın ömrü

Bu sənət yarışı, həyat yarışı,
Tökülən alnımın təridi, qardaş.
Açılsa, qovğadan şairin başı,
Kərənin qırılan yeridi, qardaş!

Məni özü bilər duyub-duymayan,
Anlayıb, anmayıb, sayıb-saymayan,
Uduzar şairlə oyun oynayan,
Əlində taleyin zəridi, qardaş!

Baxma ki, çinardı qəfil budanan,
Baxma ki, öz ömrü gödəkdi yaman.
Tükənmək bilməyən bu vaxt, bu zaman
Hansı bəxtəvərin şeiridi qardaş!?

Yayıl yer üzünə, ey şeirim-nəğməm,
Əsmə, kəndirimi kəsmə, ey qələm!
Həyatın bir güvənc yeri də mənəm,
Dərdim onun dərdi-səridi, qardaş!

Duy bircə misranın fəlsəfəsini,
"Allah da çox sevir şeirin səsini".
Şairdi fırladan Yer kürəsini,
Ya şair qəlbinin biridi, qardaş?

Mümkündü, o nadan bir dərman ala,
Hayfını azardan-bezardan ala.
Şeiri satmırlar ki, bazardan ala,
Allahın sehridi, sirridi, qardaş!

Kim ki, şairinə qıyır dünyanın,
Barat, o, qəlbinə dəyir dünyanın.
Uzanan ömrüdü şair dünyanın,
Ən yaxşı xeyridi-bəhridi, qardaş!

### "O sözü geri qaytarın"

İlahidən gəlməyəndə
O sözü geri qaytarın.
Qoymayın ölsün, dirildin,
Sözü ölümdən qurtarın.

Söz bəşərin şirin dili,
Sevirəm bu şirindili.
Söz - çəmənin qönçə gülü,
Söz - qərib durna qatarı!

Bir müqəddəs yazı itib,
Tapan gərək, izi itib.
Allahın bir sözü itib,
Şair o sözü axtarır!

### Mən ayağa qalxacam

Ərimələ, yanmalı pərvanələr şam üçün,
Bu sözlər qanun olsun
gərək hər adam üçün,
Dizinizə döyməyin,
qan verən yaram üçün,
Mən ayağa qalxacam,
yarama torpaq tökün!

Gərək bu gün poladdan
qolum-qanadım olsun,
Vətənin dar günləri
məhşər saatım olsun!
Vətənin qarşısında
bu əsgər andım olsun,
Mən ayağa qalxacam,
yarama torpaq tökün!

Bəsdi deyib-ağladım,
yoxdu bir kəsim deyə,
Qoymaram borclu qalıb
ruhum tələssin göyə?
Anamın göz yaşları
bir yolluq kəssin deyə,
Mən ayağa qalxacam,
yarama torpaq tökün!

Bu səs əsgər səsidi,
ürəkdən gəlir, bilin!
Yatmış baxtım, iqbalım,
oyanıb gülür, bilin.
Qoy o qız da durmasın,
elə boynu bükülü,
Mən ayağa qalxacam,
yarama torpaq tökün!

Qan itirə-itirə elə bil qan tapmışam,
Allahdan nazil olan Quran,
iman tapmışam.
Bütün dərdləri yenən
təzə dərman tapmışam,
Mən ayağa qalxacam,
yarama torpaq tökün!

### Toxumluq buğda

Əlini vurmasın qoy ona yetən,
Hər vaxt ələ düşməz, hər vaxt tapılmaz.
Əzizim, toxumluq buğdadı Vətən,
Ancaq hara gəldi buğda səpilməz!

Qoyulub göz üstə, öpülməlidir,
Onsuz çörək itər, onsuz el itər.
Oğul ürəyinə səpilməlidir,
Oğul ürəyində cücərib bitər.

Yaxşı gör hüsnündə bu yeri-göyü,
Onun nə minnəti, nə qılığı var.
Üzündə-gözündə anam tökdüyü,
Halal kündələrin ağ işığı var.

Onsuz bir kəsin də təhnəsi dolmaz,
Onsuz gül də açmaz, bülbül də ötməz.
Əzizim, hər buğda toxumluq olmaz,
Əzizim, hər buğda ürəkdə bitməz!

Oğul ürəyində, oğul qanında,
Nəsildən nəslə keçir əbədi.
Ölüm ayağında bir qocanın da,
Toxumluq buğdadır ilk vəsiyyəti.

Onu qürur sayıb, nur sayanların,
Qəlbi qürurlanıb, gözü nurlanıb.
Toxumluq buğdası olmayanların,
Həmişə xəlbiri göydə fırlanıb.

Hər yetən anaya qəlb ana demir,
Adəm də keçməyib buğda sözündən.
Səndən su istəmir, günəş istəmir,
Günəşi özündən, suyu özündən!

Bilək ağzımızda daddı bu buğda,
Hər vaxt ələ düşməz, tapıla bilməz.
Namusdu, qeyrətdi, addı bu buğda,
Ancaq hara gəldi səpilə bilməz!

# İdman

## Azərbaycan karateçiləri "Bosphorus Cup" turnirini 21 medalla başa vurublar



İstanbulda beynəlxalq "Bosphorus Cup" turnirində iştirak edən Azərbaycan karateçiləri ənənəvi yarışı 21 medalla başa vurublar.

Mükafatlardan 5-i qızıl, bir o qədəri gümüş, 11-i isə bürünc medaldır. Milli komandanın məşqçiləri Şahin Xudaverdiyev (kumite) və Anar Əhmədovun (kata) rəhbərliyi ilə tatamiyə çıxan idmançılarımızdan qızıl medalları Rafael Məmmədov (52-60 yaşlı veteranlar, kata), Samir Məmmədov (75 kq), Mədinə Sadıqova (21 yaşadək gənclər, 60 kq), Eldar Əhmədov və Sahib Əhədov (parakarate) qazanıblar. Gümüş medallara Qasım İskəndərov (75 kq), Elvin Ağayev (84 kq-dan yuxarı), Fərid Savadov (16-17 yaşlı gənclər, 55 kq), Soltan Allahquliyev (13 yaşlı uşaqlar, 45 kq) və Ülvi Zeynalov (parakarate) layiq görülüblər.

Məhəmməd İsmayılov (67 kq), Fərid Şahbazlı (75 kq), Ceyhun İsmayılov (kata), Renata Ərəbli (61 kq), Novruz Əliyev (84 kq), Kəmalə Hüseynova (68 kq-dan yuxarı), Qasım İskəndərov (21 yaşadək gənclər, 78 kq), Xəyal Məmmədov və Ceyhun İsmayılov (21 yaşadək gənclər, kata), həmçinin İnci Əzizova (21 yaşadək gənclər, 60 kq) və Adil Əlyar (parakarate) yarışı üçüncü pillədə başa vurublar.

## Güləşçilərimiz İstanbulda Yaşar Doğunun xatirə turnirində güclərini sınayacaqlar

Yanvarın 10-dan 12-dək İstanbulda sərbəst və qadın güləşi üzrə Avropa, dünya və Olimpiya çempionu Yaşar Doğunun xatirə turniri keçiriləcək.

Ənənəvi yarışda ölkəmizi həm sərbəst, həm də qadın güləşçilərimiz təmsil edəcəklər. Kişilərin mübarizəsində ölkəmizi baş məşqçi əvəzi Zəlimxan Hüseynov və məşqçi Arif Abdullayevin rəhbərliyi altında Əfqan Xaşalov, Pərviz İbrahimov, Georgi Edişeraşvili (hamısı 57 kq), İntiqam Vəlizadə, Ruslan Qasımov (hər ikisi 61 kq), Əli Rəhimzadə, Turan Bayramov (hər ikisi 65 kq), Ağahüseyn Mustafayev (70 kq), Toğrul Əsgərov, Hacımurad Hacıyev, Hacımurad Ömərov (hamısı 74 kq), Abubakr Abakarov (79 kq), Cəbrayıl Həsənov, Osman Nurməhəmmədov, Hacımurad Məhəmmədsəidov (hamısı 86 kq), Şamil Zubairov, Aslanbek Alborov (hər ikisi 92 kq) və Camaləddin Məhəmmədov (125 kq) təmsil edəcəklər.

Qadınların yarışında baş məşqçi Aslan Ağayev və məşqçi Rövşən Umudovun rəhbərliyi altında Türkan Nəsirova (50 kq), Tatyana Varansova (53 kq), Alyona Kolesnik (57 kq), Elmira Qəmbərova, Tatyana Omelçenko (hər ikisi 62 kq), Elis Manolova (65 kq), İrina Netreba (68 kq) və Səbirə Əliyeva (76 kq) qüvvələrini sınayacaqlar.

## Bakıda keçiriləcək "Arpachay Open" beynəlxalq karate turnirində minə yaxın idmançı iştirak edəcək




Yanvarın 17-də "Arpaçay" karate klubu və Azərbaycan Milli Karate Federasiyasının (AMKF) birgə təşkilatçılığı ilə 20 Yanvar şəhidlərinin xatirəsinə karate üzrə ənənəvi beynəlxalq turniri start götürəcək.

5-ci "Arpachay Open" turnirində 10-dan artıq ölkədən 1000-dək idmançının iştirakı gözlənilir. Bakı İdman Sarayında təşkil ediləcək yarış yanvarın 19-da başa çatacaq.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 2
Nüsxə 4000